# Etibarlı gəlir mənbəyi - qızıl ixracı

## Yaxın illər ölkəmizdə daha bir qızıl yatağının istismarına başlanacaq

**Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və qeyri neft-qaz sektorunun inkişafı üçün bir sıra tədbirlər görülür. Bunlardan biri də qeyri neft-qaz mədənçıxarması sənayesidir. Son dövrlər ölkədə qızıl hasilatının artması və ixracda önəmli mövqeyə çıxması da bununla bağlıdır.**



Cari ilin ilk yarısında qızıl ixracından əldə edilən gəlirlərin həcmində yüksək artım müşahidə olunub. Belə ki, yanvar-iyun aylarında Azərbaycan dünya bazarına 144 milyon dollar dəyərində qızıl satışa çıxarıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur.

Qızıl hasilatını artırmaq üçün yeni yataqların kəşf edilməsi ilkin şərtdir. "AzerGold" QSC-nin idarə heyətinin sədri Zakir İbrahimov bildirir ki, səhmdar cəmiyyət dövlət sifarişi əsasında Şərqi Zəngəzur, Gəncə-Daşkəsən iqtisadi rayonları və Naxçıvanda müasir tədqiqat üsulları - hiperspektral peyk çəkilişləri və aeroelektromaqnetik metodlarla geoloji tədqiqatlar aparılır. Onun sözlərinə görə, bu texnologiyalar hasilata qədərki mərhələdə xərcləri azaldır, geoloji kəşfiyyat işlərinin dəqiqliyini və sürətini artırır:

"Aparılan tədqiqatlar nəticəsində həmin ərazilərin perspektivləri müəyyən olunacaq. Gələn il tədqiqat sahələrinin ilkin qiymətləndirilməsi aparılaraq kəşfiyyat proqramının yekunlaşdırılması nəzərdə tutulub. Bu tədqiqatların nəticəsində ölkə ərazisinin Kiçik Qafqaz hissəsinin vahid hiperspektral xəritələnməsi tamamlanacaq. Həmin tədqiqatlar və toplanmış geoloji məlumatlar ölkənin dağ-mədən sahəsində malik olduğu bütün potensialı haqqında dəqiq təsəvvür yaratmaqla perspektivli sahələrdə işə başlanılması üçün müvafiq qərarların verilməsinə imkan yaradacaq. Bu, ölkə iqtisadiyyatının inkişafı üçün yeni dağ-mədən layihələrinə investorların və ya milli operator şirkəti qismində "AzerGold" QSC-nin cəlb edilməsinə imkan verəcək".

Z.İbrahimov həmçinin qeyd edib ki, dağ-mədən işlərini sürətləndirmək məqsədi ilə dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində yeni müəssisə yaradılıb. "AzerGold"un törəmə şirkəti - "AzerBlast" MMC dağ-mədən sektorunda istifadə edilən mülki partlayıcı maddələrə yaranan tələbatı yerli xammal hesabına ödəməklə məşğul olan yeni istehsal sahəsidir. Qarşıdakı illərdə mədənçıxarma, qazıntı sahələri, inşaat, yol təsərrüfatı və digər sahələrdə icra edilən partlayış işlərində məhz dövlətimizin pay sahibi olduğu "AzerBlast" şirkətinin istehsal etdiyi məhsullardan geniş şəkildə istifadə ediləcək.

Ölkədə yeni qızıl yataqlarının kəşf edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında da kəşfiyyat işləri aparılır. Culfa rayonundakı "Ortakənd" qızıl yatağının istismarı üçün hazırlıq işləri görülür. Tədqiqatlara görə, yerin təkində qızıl ehtiyatı 542 min unsiya dəyərindədir.

Zakir İbrahimov bildirir ki, qızıl ehtiyatının satılabilən miqdarı isə 237 min unsiya qiymətləndirilib. "Ortakənd" yatağının 2028-ci ildə istismara verilməsi nəzərdə tutulub. Hazırda ilkin texniki-iqtisadi hesablama ("Scoping study") parametrləri üzrə araşdırmalar davam edir. Sosial, iqtisadi və ekoloji amillər nəzərə alınmaqla yatağın satılabilən ehtiyatlarının daha da artırılması üçün optimal hasilat və emal texnologiyaları araşdırılır.

Onun sözlərinə görə, Culfa və Ordubad rayonlarında yerləşən digər perspektiv sahələrdə də tədqiqatlar aparılır: "Söhbət "Göydağ" mis-molibden, "Başkənd" mis və "Nəsirvaz" polimetal təzahürləri sahələrindən gedir. Cari il ərzində "Göydağ" və "Başkənd" yataqlarının ehtiyatlarının beynəlxalq standartlara uyğun hesablanması nəzərdə tutulub. "Göydağ" yatağının 2029-cu ildə, digər yataqların tədqiqatların son nəticələrindən asılı olaraq növbəti illərdə istismara verilməsi proqnozlaşdırılır".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan .- 2025.- 7 avqust (№163).- S.6.